2017-ci ilin may ayında MUBSK məlumatların tanınması və ölçülməsi, təqdimatı və açıqlanması məsələlərini əhatə edən sığorta müqavilələrinin uçotu üzrə yeni məcmu uçot standartı - 17 saylı *"Siğorta müqavilələri"* adlı MHBS-ni qəbul etmişdir.17 saylı MHBS 2005-ci ildə qəbul edilən 4 saylı *"Siğorta müqavilələri"* adlı MHBS-ni əvəz edir. 17 saylı MHBS sığortanı verən müəssisələrin növündən asılı olmayaraq, bütün növ sığorta müqavilələrinə (həyat sığortası, digər sığortalar, birbaşa və təkrar sığorta), eləcə də ixtiyari iştirak xüsusiyyətləri olan müəyyən zəmanətlərə və maliyyə alətlərinə tətbiq edilir. Əhatə dairəsinə bir neçə istisna tətbiq ediləcək. 17 saylı MHBS-nin ümumi məqsədi sığortaçılar üçün daha faydalı və uyğun olan sığorta müqavilələrinin uçotu modelini təqdim etməkdir. Əsas etibarı ilə əvvəlki yerli uçot prinsiplərinə əsaslanan 4 saylı MHBS-dən fərqli olaraq, 17 saylı MHBS sığorta müqavilələri üçün mühasibat uçotunun bütün müvafiq tərəflərini əhatə edən kompleks uçot modelini təqdim edir. 17 saylı MHBS-nin əsasını ümumi model təşkil edir və aşağıdakılarla tamamlanır:

- Birbaşa iştirak xüsusiyyətləri olan müqavilələr üçün xüsusi adaptasiya (dəyişkən haqq yanaşması);
- Sadələşdirilmiş yanaşma (premium bölüşdürmə yanaşması) – əsas etibarı ilə qısamüddətli müqavilələrə aiddir.

Düzəlişlərin Qrupun konsolidasiya edilmiş qısaldılmış aralıq maliyyə hesabatlarına əhəmiyyətli təsiri yoxdur.

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri, əhəmiyyətli uçot təxminləri və mühakimələri (davamı)

### Yeni və düzəliş edilmiş standartlar və şərhlər (davamı)

*Uçot qiymətləndirmələrinin tərifi" – 8 saylı MUBS-yə düzəlişlər*

8 saylı MUBS-yə düzəlişlər uçot qiymətləndirmələrindəki dəyişikliklər və mühasibat uçotu prinsiplərindəki dəyişikliklər arasındakı fərqlərə və səhvlərin aradan qaldırılmasına aydınlıq gətirir. Bundan əlavə, düzəlişlər müəssisələr tərəfindən uçot qiymətləndirmələri aparması üçün ölçmə üsullarının və giriş məlumatlarından istifadə edilməsi metodlarına aydınlıq gətirir.

Düzəlişlər Qrupun konsolidasiya edilmiş qısaldılmış aralıq maliyyə hesabatlarına təsir göstərmir.

*"Mühasibat uçotu prinsiplərinin açıqlanması" – 1 saylı MUBS və MHBS üzrə Praktiki tövsiyələr 2-yə düzəlişlər*

1 saylı MUBS və MHBS üzrə Praktiki tövsiyələr 2 - *"Əhəmiyyətliliyə dair mülahizələrin formalaşdırılması"*-na düzəlişlər əhəmiyyətlilik mühakimələrinin mühasibat uçotu siyasətinin açıqlamalarına tətbiq edilməsində müəssisələrə kömək etmək üçün təlimat və nümunələr təqdim edir. Düzəlişlərin məqsədi Müəssisələr qarşısında qoyulmuş "mühüm" mühasibat uçotu prinsiplərini açıqlamaq tələbini "əhəmiyyətli" mühasibat uçotu prinsiplərinin açıqlanması üzrə tələblə əvəz etməklə və mühasibat uçotu prinsiplərinin açıqlanması ilə bağlı qərarlar verərkən müəssisələrin əhəmiyyətlilik anlayışını necə tətbiq etdiklərinə dair təlimatın əlavə edilməsi ilə müəssisələrə kömək etməkdir.

Düzəlişlər Qrupun konsolidasiya edilmiş qısaldılmış aralıq maliyyə hesabatlarına təsir göstərmir, lakin Qrupun illik konsolidasiya edilmiş maliyyə hesabatlarında uçot siyasəti ilə bağlı açıqlamalara təsir edəcəyi gözlənilir.

*Vahid əməliyyatdan yaranan aktivlər və öhdəliklərlə bağlı təxirə salınmış vergi – 12 saylı MUBS-yə düzəlişlər*

12 saylı MUBS-yə düzəlişlər ilkin tanınma istisnasının əhatə dairəsini daraldır, belə ki, həmin istisna artıq bərabər vergi tutulan və çıxılan müvəqqəti fərqlərə səbəb olan əməliyyatlara tətbiq edilmir.

Düzəlişlər Qrupun konsolidasiya edilmiş qısaldılmış aralıq maliyyə hesabatlarına təsir göstərmir.

### Təqdimat valyutası

Hazırkı aralıq maliyyə hesabatlarındakı bütün məbləğlər xüsusi qeyd edilmiş hallar istisna olmaqla, milyon Azərbaycan manatı ("AZN") ilə təqdim edilir.

### Valyuta məzənnələri

Xarici valyuta qalıqlarının çevrilməsində istifadə edilən əsas valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| Valyuta | 30 iyun 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| 1 ABŞ dolları | 1.7000 | 1.7000 |
| 1 AVRO | 1.8521 | 1.8114 |
| 1 İsveçrə frankı | 1.8952 | 1.8412 |
| 1 Gürcüstan larisi | 0.6476 | 0.6298 |
| 1 Ukrayna qrivnası | 0.0460 | 0.0460 |
| 1 Türk lirəsi | 0.0674 | 0.0909 |
| 100 Yapon yeni | 1.1830 | 1.2813 |

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri, əhəmiyyətli uçot təxminləri və mühakimələri (davamı)

**Hiperinflyasiyalı İqtisadiyyatlarda Maliyyə Hesabatlılığı**

1 yanvar 2022-ci il tarixindən etibarən Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında 29 saylı *"Hiperinflyasiyalı iqtisadiyyatlarda Maliyyə Hesabatlılığı"* adlı MUBS tətbiq edilmişdir, çünki Qrupun törəmə müəssisəsi olan SOCAR Türkiye Enerji A.Ş-nin funksional valyutası (Türk Lirəsi) 29 saylı MUBS-yə uyğun olaraq hiperinflyasiyalı iqtisadiyyatın valyutasıdır. 30 iyun 2023-cü il tarixinə və həmin tarixdə başa çatan altı aylıq dövr ərzində Türk Lirəsi hiperinflyasiya iqtisadiyyatının valyutası olmağa davam etmişdir.

31 dekabr 2022-ci il və 30 iyun 2023-cü il tarixlərinə Türk lirəsinin ümumi alıcılıq qabiliyyətindəki dəyişiklikləri əks etdirmək üçün 29 saylı MUBS tətbiq edilmişdir. 29 saylı MUBS tələb edir ki, hiperinflyasiya şəraitində olan iqtisadiyyatın valyutası ilə hazırlanmış maliyyə hesabatları balans hesabatının tarixinə olan ölçü vahidi ilə ifadə edilməlidir. 29 saylı MUBS-nin tətbiqi üçün tələblərdən biri üç illik məcmu inflyasiyanın 100 faizə yaxınlaşması və ya ondan yuxarı olmasıdır.

Türkiyə Statistika Təşkilatının tərəfindən nəşr olunan inflyasiya məlumatlarına görə, 30 iyun 2023-cü il tarixinə İstehlak Qiymətləri İndeksində (İQİ) üç illik məcmu artım 190 faiz təşkil etmişdir.

29 saylı MUBS-nin tətbiqi zamanı Qrup Türkiyə Statistika Təşkilatı tərəfindən dərc edilmiş Türkiyədə İQİ əsasında əldə edilən çevrilmə əmsalından istifadə etmişdir. Cari və əvvəlki illər üzrə İQİ və müvafiq çevrilmə əmsalları Türkiyənin hiperinflyasiyalı hesab olunmağı dayandırıldığı vaxtdan, yəni 1 yanvar 2005-ci il tarixindən etibarən aşağıdakı cədvəldə təqdim edilir:

| Başa çatan il | İndeks nömrəsi | İndeks, % | Çevirmə amili |
|---|---|---|---|
| 2004 | 113.86 | 9.35% | 11.87 |
| 2005 | 122.65 | 7.72% | 11.02 |
| 2006 | 134.49 | 9.65% | 10.05 |
| 2007 | 145.77 | 8.39% | 9.27 |
| 2008 | 160.44 | 10.06% | 8.42 |
| 2009 | 170.91 | 6.53% | 7.91 |
| 2010 | 181.85 | 6.40% | 7.43 |
| 2011 | 200.85 | 10.45% | 6.73 |
| 2012 | 213.23 | 6.16% | 6.34 |
| 2013 | 229.01 | 7.40% | 5.90 |
| 2014 | 247.72 | 8.17% | 5.46 |
| 2015 | 269.54 | 8.81% | 5.01 |
| 2016 | 292.54 | 8.53% | 4.62 |
| 2017 | 327.41 | 11.92% | 4.13 |
| 2018 | 393.88 | 20.30% | 3.43 |
| 2019 | 440.50 | 11.84% | 3.07 |
| 2020 | 504.81 | 14.60% | 2.68 |
| 2021 | 686.95 | 36.08% | 1.97 |
| 30 iyun 2022 | 977.90 | 78.62% | 1.38 |
| 2022 | 1,128.45 | 64.27% | 1.20 |
| 30 iyun 2023 | 1,351.59 | 38.21% | 1.00 |

Konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatdakı bütün maddələr hesabat tarixinə cari ölçü vahidi ilə ifadə edilir, Türk lirəsi ilə əməliyyatlara isə orta məzənnə tətbiq edilir. Mənfəət və ya zərərə aid olan bütün məbləğlər gəlir və xərc maddələrinin yarandığı və aylıq olaraq indeksləşdirildiyi tarixlərdən ümumi qiymət indeksində dəyişiklik tətbiq edilməklə düzəliş edilir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri, əhəmiyyətli uçot təxminləri və mühakimələri (davamı)

### Mühüm uçot təxminləri və mühakimələri

Hazırkı aralıq maliyyə hesabatlarının hazırlanması zamanı Qrupun tətbiq etdiyi mühüm uçot təxminləri və mühakimələri 31 dekabr 2022-ci il tarixində başa çatan il üzrə audit olunmuş konsolidasiya edilmiş maliyyə hesabatlarında açıqlanan uçot təxminləri və mühakimələrinə uyğun olmuşdur. Təxminlər əsasən əmlak, tikili və avadanlıqların faydalı istifadə müddəti, artan borc öhdəliyi dərəcəsinin qiymətləndirilməsi, aktiv və öhdəliklərin ədalətli dəyəri, təxirə salınmış mənfəət vergisi aktivinin tanınması, neft-qaz ehtiyatlarının qiymətləndirilməsi, qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi, maliyyə aktivləri üçün GKZ, əmək qabiliyyətinin itirilməsi üçün ödənişlər üzrə ehtiyat, aktivlərin ləğv olunması və ətraf mühitin qorunması ilə bağlı öhdəliklər üzrə irəli sürülür.

Rəhbərlik bu təxminləri və mühakimələri keçmiş təcrübəsinə və aktiv və öhdəliklərin qalıq dəyərinin müəyyən edilməsi üçün əsas hesab edilən digər amilləri nəzərə almaqla davamlı olaraq təhlil edir. Uçot təxminləri üzrə düzəlişlər həmin təxminlərə dəyişiklik edildiyi dövrdə uçota alınır. Müxtəlif fərziyyələr və ya şərtlər tətbiq edilərsə, faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər; lakin, rəhbərlik bu təxminlərdəki hər hansı dəyişikliyin təsirinin əlavə edilən aralıq maliyyə hesabatlarında xüsusi olaraq açıqlanmadığı halda əhəmiyyətli olmayacağını güman edir.

### Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi

Bərpa edilə bilməyən aktivlərin balans dəyərini əks etdirən hadisələr və ya şəraitlərə əsasən rəhbərlik hər hesabat tarixində bütün qeyri-maliyyə aktivlərinin mümkün dəyərsizləşməsi üzrə hər hansı göstəricilərin olub-olmamasını müəyyən edir. Bu cür göstəricilərə aşağıdakılar daxildir: Qrupun biznes planlarında baş verən dəyişikliklər, qeyri-rentabelli fəaliyyətə gətirib çıxaran əmtəə qiymətlərində dəyişikliklər, məhsul qarışıqlarında olan dəyişikliklər və neft-qaz əmlakına gəldikdə isə − təxmin edilmiş təsdiqlənmiş ehtiyatların əhəmiyyətli dərəcədə azalması. Qudvil və digər qeyri müəyyən faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər hər il və dəyərsizləşmə əlamətləri mövcud olduğu və digər vaxtlarda dəyərsizləşmə üzrə yoxlanılır. Sair qeyri-maliyyə aktivlər bərpa edilə bilməyən balans dəyərinə dair göstəricilərin mövcud olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır.

Dəyərsizləşmə, aktivin və ya pul vəsaitlərini yaradan vahidin (PVYV) balans dəyəri onun bərpa oluna bilən dəyərindən artıq olduqda yaranır. Bərpa oluna bilən dəyər satış xərclərini çıxmaqla ədalətli dəyərin və ya istifadə dəyərinin daha yüksək olanı hesab olunur. Satış xərclərini çıxmaqla ədalətli dəyər, kommersiya əməliyyatlarında oxşar aktivlərin mütləq satışı əməliyyatlarından əldə edilən məlumatlar və ya əlavə satış xərclərini çıxmaqla müşahidə olunan bazar qiymətləri əsasında hesablanır. İstifadə dəyəri diskont edilmiş pul vəsaitlərinin hərəkəti (DPVH) modeli ilə hesablanır. Pul vəsaitlərinin hərəkəti növbəti beş il üzrə büdcədən götürülür və Qrupun hələ tərəf olmadığı restrukturizasiya əməliyyatlarını və ya yoxlanılan PVYV aktivinin nəticələrini yaxşılaşdıracaq əhəmiyyətli gələcək investisiyaları daxil etmir. Bərpa edilən məbləğ DPVH modeli üçün istifadə edilən diskont dərəcəsi, həmçinin gözlənilən gələcək pul vəsaitlərinin axını və ekstrapolyasiya məqsədləri üçün istifadə edilən artım dərəcəsinə həssasdır.

72 AZN məbləğində (30 iyun 2022-ci il: 106 AZN) dəyərsizləşmə Qrupun, müvafiq olaraq, 25 AZN (30 iyun 2022-ci il: 54 AZN) və 47 AZN (30 iyun 2022-ci il: 52 AZN) məbləğlərində neft-qaz seqmenti ilə bağlı olan, Azərbaycan Respublikasında yerləşən aktivlərin neft-qaz əmlakı və avadanlığının və tamamlanmamış tikinti siniflərinin silinməsindən irəli gəlir (Qeyd 8). Dəyərsizləşmə Azərbaycan Respublikasında yerləşən mənfəət gətirməyən neft yataqlarına investisiyalarla əlaqədardır. Qrup mənfəət gətirməyən yataqlardan gələcək iqtisadi faydaların alınmasını gözləməmişdir və 30 iyun 2023-cü və 31 dekabr 2022-ci il tarixlərinə neft yataqlarının bərpa oluna bilən məbləği sıfıra bərabər olmuşdur.

### *Əks faktorinq razılaşmaları*

İşgüzar fəaliyyətin adi gedişində Qrup maliyyə təşkilatları ilə əks faktorinq razılaşmaları bağlayır. Həmin razılaşmalara əsasən maliyyə təşkilatı Qrupun alınmış mallara görə təchizatçılara ödəməli olduğu məbləğləri hesab-fakturada göstərilən ödəniş tarixində ödəməyə razılaşır. Qrup bu məbləğlərin əvəzini hesablanmış faizlə birlikdə təchizatçıların maliyyə təşkilatlarından ödəniş aldıqları tarixdən sonra maliyyə təşkilatına ödəyir.

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri, əhəmiyyətli uçot təxminləri və mühakimələri (davamı)

### Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi (davamı)

Qrup adətən əks faktorinq razılaşmalarından irəli gələn qalıqları qısamüddətli borc öhdəlikləri kimi, əlaqəli pul vəsaitlərinin hərəkətini isə konsolidasiya edilmiş maliyyə hesabatlarında aşağıdakı kimi təqdim edir:

- Maliyyə müəssisələri təchizatçılara ödəniş etdiyi tarixdə - həm maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti bölməsində maliyyə müəssisələrindən pul vəsaitlərinin mədaxili, həm də əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti bölməsində təchizatçılar üzrə pul vəsaitləri xərcləri; və
- Qrup maliyyə müəssisələrinə ödəniş etdiyi tarixdə - maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti bölməsində pul vəsaitləri xərcləri kimi.

Rəhbərlik hesab edir ki, əks faktorinq razılaşmaları ilə bağlı qalıqların və pul vəsaitlərinin hərəkətinin bu cür təqdim edilməsi belə əməliyyatların mahiyyətini və iqtisadi reallığını əks etdirir, çünki:

- Maliyyə təşkilarlarının təchizatçıya ödənişlər etməsindən sonra Qrup qanuni şəkildə təchizatçı qarşısındakı öhdəliklərdən azad edilir;
- Razılaşmalar Qrupu uzadılmış kredit şərtləri ilə təmin edir;
- Razılaşmalara əsasən tutulan faizlər təchizatçılardan gecikdirilmiş hesab-fakturalar üzrə ödəniləcək faiz dərəcələri deyil, Qrupun maliyyə təşkilatlarından qısamüddətli kreditlər üçün ümumi borcalma dərəcələrinə uyğundur;
- Razılaşmalar Qrupun əlavə pul vəsaitlərini borc almaq qabiliyyətini məhdudlaşdırır, yəni mövcud kredit xətti limitlərini azaldır;
- Razılaşmaların şərt və müddəaları maliyyə təşkilatları və Qrup (alıcı) arasında razılaşdırılır və Qrup maliyyə təşkilatı qarşısındakı öhdəliyini ödəmədiyi halda, həmin maliyyə təşkilatının təchizatçıdan bu ödənişi tələb etmək hüququ olmur.

Bundan əlavə, rəhbərlik bu razılaşmaların maliyyə qurumundan birbaşa öz hesabına ödəniş aparılmasını tələb etməyə yol verdiyini, sonra isə təchizatçıya dərhal ödəniş edilə biləcəyini qeyd etmişdir. Rəhbərlik hesab edir ki, pul vəsaitlərinin hərəkətinin təqdimatı yalnız vəsaitlər təchizatçıya köçürüldükdən əvvəl pul vəsaitlərini bank hesabına qəbul etmək hüququndan istifadə edib-etməməyə qərar verməsindən asılı olmamalıdır, çünki rəhbərlik, hansı köçürmə üsulunu seçməsindən asılı olmayaraq, iqtisadi cəhətdən eyni hüquq və öhdəliklərə malikdir.

Rəhbərlik həmçinin hesab edir ki, aldığı vəsaitdən təchizatçıya ödənişlərin aparılmasından savayı digər məqsədlə istifadə edə bilməməsi həmin vəsaitlərin pul vəsaitləri kimi təsnif edilməsinə mane olmur. Bu, müəssisə tərəfindən yalnız müəyyən edilmiş məqsəd və ya layihə üçün istifadə oluna bilən xüsusi kreditlərə tətbiq olunan yanaşmaya uyğundur.

Rəhbərlik həmçinin pul vəsaitləri hərəkətinin "xalis" şəkildə təqdim edilməsinin (yəni maliyyə təşkilatı tərəfindən təchizatçıya ödənişin qeyri-nağd əməliyyat kimi qəbul edilməsinin) əməliyyat pul vəsaitlərinin hərəkətində "süni" artımla nəticələnəcəyini və bu səbəbdən həm eyni fəaliyyətlərdə iştirak edən (əks faktorinqdən istifadə etməyən) digər müəssisələr ilə müqayisəni təhrif edəcəyini, həm də pul vəsaitlərinin hərəkəti haqqında hesabatda təqdim olunan məlumatların proqnoz dəyərini azaldacağını hesab edir.

Bundan əlavə rəhbərlik qeyd etmişdir ki, MHBS-də qarşı tərəfin adından pul vəsaitlərinin köçürülməsini nəzərdə tutan əməliyyatlarda agent-əsas tərəf münasibətlərini müəyyənləşdirən xüsusi göstəriş olmadığından, bu məsələ ümumi nəzarət anlayışı əsasında həll olunmalıdır. Beləliklə, vəsaitlər təchizatçıya köçürüldükdən əvvəl rəhbərliyin onlara nəzarət etdiyini nəzərə alaraq (bu fakt, ödənişlərin birbaşa təchizatçının cari hesabına deyil, Qrupun cari hesabına ödənilməsini tələb etmək hüququ ilə sübuta yetirilir), Qrup bu ödənişlər üçün faktiki olaraq əsas tərəf, maliyyə təşkilatı isə onun agenti kimi çıxış edir. Bu hal, Qrupun müqavilə əsasında öz cari hesabına pul vəsaitlərini qəbul etmək hüququ olmadığı hallardan fərqlənir.

## 3. Əməliyyat seqmentləri üzrə məlumat

Əməliyyat seqmentləri − işgüzar fəaliyyəti həyata keçirərək mənfəət əldə edən və ya xərclərin yaranmasını nəzərdə tutan, fəaliyyət nəticələri Qrupun rəhbərliyi tərəfindən müntəzəm olaraq təhlil edilən və haqqında ayrıca maliyyə məlumatları mövcud olan müəssisə komponentləridir.

Qrup dörd hesabat seqmentinə ayrılmışdır:

- Neft-qaz – neft-qaz məhsullarının hasilatını əks etdirir;
- Emal − xam neft və qaz kondensatının emalını əks etdirir;
- Neft mədən xidmətləri – qazma, quyu tikintisi və tamamlaması işlərini əks etdirir;
- Satış və paylaşdırma − xam neft, təbii qaz, neft məhsulları və qaz kondensatının nəqli və satışını əks etdirir.

Yuxarıda göstərilən əməliyyat seqmentlərini yaratmaq üçün heç bir əməliyyat seqmentləri cəmləşdirilməmişdir.

Rəhbərlik ehtiyatların bölüşdürülməsi və fəaliyyətin qiymətləndirilməsi ilə bağlı qərarların qəbul edilməsi üçün ayrı-ayrılıqda biznes vahidləri və törəmə müəssisələrinin əməliyyatlarının nəticələrinə nəzarət edir. Əməliyyat seqmentləri arasında olan əməliyyatlara tətbiq edilən qiymətlər kommersiya və ya qeyri-kommersiya əsasları ilə yaranır.

Rəhbərlik hər seqmentin fəaliyyətini vergidən sonrakı mənfəət göstəricisinə əsasən qiymətləndirir.

30 iyun 2023-cü və 2022-ci il tarixlərində başa çatan altı ay üzrə Qrupun əməliyyat seqmentləri ilə bağlı gəlirləri və mənfəəti haqqında məlumat aşağıdakı cədvəldə təqdim edilir.

| **30 iyun 2023-cü il tarixində başa çatan altı ay** | **Neft-qaz** | **Emal** | **Neft mədən xidmətləri** | **Satış və paylaşdırma** | **Bölüşdürülməmiş (*)** | **Eliminasiyalar (**)** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|
| **Gəlirlər** | | | | | | | |
| Kənar müştərilər | 2,209 | 1,403 | 339 | 37,916 | 314 | − | **42,181** |
| Seqmentlər arası | 1,812 | 896 | 246 | 822 | 249 | (4,025) | **−** |
| **Cəmi gəlirlər** | **4,021** | **2,299** | **585** | **38,738** | **563** | **(4,025)** | **42,181** |
| **Seqment üzrə mənfəət/(zərər)** | **1,789** | **(811)** | **39** | **815** | **1,513** | **(1,931)** | **1,414** |

| **30 iyun 2022-ci il tarixində başa çatan altı ay** | **Neft-qaz** | **Emal** | **Neft mədən xidmətləri** | **Satış və paylaşdırma** | **Bölüşdürülməmiş (*)** | **Eliminasiyalar (**)** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|
| **Gəlirlər** | | | | | | | |
| Kənar müştərilər | 3,255 | 3,044 | 159 | 53,656 | 214 | − | **60,328** |
| Seqmentlər arası | 1,628 | 700 | 238 | 1,745 | 284 | (4,595) | **−** |
| **Cəmi gəlirlər** | **4,883** | **3,744** | **397** | **55,401** | **498** | **(4,595)** | **60,328** |
| **Seqment üzrə mənfəət/(zərər)** | **2,319** | **1,199** | **(65)** | **1,853** | **3** | **(685)** | **4,624** |

(*) *Bu rəqəmlərə Qrup səviyyəsində idarə edilən korporativ funksiyalarla bağlı bölüşdürülməmiş gəlirlər və xərclər, habelə Qrupun yuxarıda qeyd olunan seqmentlərin heç birinə aid olmayan qeyri-əsas fəaliyyətləri daxildir.*

(**) *Eliminasiyalar kimi göstərilən məbləğlərə şirkətdaxili və seqmentlərarası əməliyyatlar daxildir.*

Aşağıdakı cədvəldə Qrupun 30 iyun 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə əməliyyat seqmentlərinin aktivləri, öhdəlikləri və 30 iyun 2023-cü və 2022-ci il tarixlərində başa çatan altı ay üzrə əsaslı məsrəfləri təqdim edilir:

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 3. Əməliyyat seqmentləri üzrə məlumat (davamı)

| | Neft-qaz | Emal | Neft mədən xidmətləri | Satış və paylaşdırma | Bölüşdürülməmiş (*) | Eliminasiyalar (**) | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **Seqment aktivləri** | | | | | | | |
| 30 iyun 2023-cü il | 22,058 | 19,304 | 2,538 | 26,236 | 27,241 | (27,026) | **70,351** |
| 31 dekabr 2022-ci il | 27,213 | 20,739 | 2,132 | 30,502 | 29,400 | (29,151) | **80,835** |
| **Seqment öhdəlikləri** | | | | | | | |
| 30 iyun 2023-cü il | (9,600) | (9,492) | (835) | (14,979) | (15,535) | 13,719 | **(36,722)** |
| 31 dekabr 2022-ci il | (13,761) | (8,918) | (989) | (20,701) | (17,253) | 14,122 | **(47,500)** |

| | Neft-qaz | Emal | Neft mədən xidmətləri | Satış və paylaşdırma | Bölüşdürülməmiş (*) | Eliminasiyalar (**) | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **Əsaslı məsrəflər (***)** | | | | | | | |
| 30 iyun 2023-cü il tarixində başa çatan altı ay | 757 | 377 | 20 | 315 | 36 | – | **1,505** |
| 30 iyun 2022-ci il tarixində başa çatan altı ay | 818 | 496 | – | 96 | 35 | – | **1,445** |

*(*)* *Bu rəqəmlərə Qrup səviyyəsində idarə edilən korporativ funksiyalarla bağlı bölüşdürülməmiş gəlirlər və xərclər, habelə Qrupun yuxarıda qeyd olunan seqmentlərin heç birinə aid olmayan qeyri-əsas fəaliyyətləri daxildir.*

*(**)* *Eliminasiyalar kimi göstərilən məbləğlərə şirkətdaxili və seqmentlərarası əməliyyatlar daxildir.*

*(***)* *Əsaslı məsrəflər maliyyə alətləri, təxirə salınmış vergi aktivləri və əmək fəaliyyətinin başa çatmasından sonra ödəniş planları üzrə aktivlər istisna olmaqla uzunmüddətli aktivlər üzrə əlavələri əks etdirir.*

## 4. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar

### Baş rəhbərliyə ödənişlər

Qrupun baş rəhbərliyinə SOCAR-ın Prezidenti, birinci Vitse-prezident və doqquz Vitse-prezidenti daxildir. Qrupun baş rəhbərliyinin bütün üzvləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir. Baş rəhbərliyin üzvləri təsdiqlənmiş əmək haqqı cədvəlinə uyğun olaraq əmək haqqı və mükafatlar, eləcə də Qrupun müəyyən şirkətlərində Direktorlar şurasının üzvləri olduqlarına görə ödənişlər almaq hüququna malikdirlər. 30 iyun 2023-cü il tarixində başa çatan altı ay ərzində baş rəhbərliyə cəmi ödənişlər 0.85 AZN (30 iyun 2022-ci il: 0.86 AZN) təşkil etmişdir.

### Əlaqəli tərəflərlə əhəmiyyətli əməliyyatlar və qalıqlar

Qrupun əhəmiyyətli əməliyyatlar apardığı və ya hesablaşmalar üzrə əhəmiyyətli qalıqlara malik olduğu əlaqəli tərəflərlə münasibətləri aşağıda göstərilir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 4. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar (davamı)

### Əlaqəli tərəflərlə əhəmiyyətli əməliyyatlar və qalıqlar (davamı)

30 iyun 2023-cü il tarixinə əlaqəli tərəflərlə qalıqlar aşağıda göstərilir:

| | Dövlət və onun nəzarətində olan müəssisələr | Asılı və birgə müəssisələr |
|---|---|---|
| Ticarət və sair maliyyə debitor borcları | 440 | 1,630 |
| GKZ | (39) | (4) |
| **Cəmi maliyyə debitor borcları** | **401** | **1,626** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 1,936 | – |
| Məhdudlaşdırılmış pul vəsaitləri | 128 | – |
| Sair cari maliyyə aktivləri | – | 30 |
| **Cəmi cari aktivlər** | **2,465** | **1,656** |
| Sair uzunmüddətli maliyyə aktivləri | 1,227 | 291 |
| **Cəmi aktivlər** | **3,692** | **1,947** |
| ARDNF qarşısında ticarət və sair kreditor borcları | 2,117 | – |
| Ticarət və sair kreditor borcları | 535 | 859 |
| **Cəmi maliyyə kreditor borcları** | **2,652** | **859** |
| CQD-yə ödəniləcək təxirə salınmış ödəniş | – | 399 |
| İcarə öhdəlikləri | 220 | – |
| Müqavilə öhdəlikləri | 104 | 37 |
| Digər uzunmüddətli öhdəliklər | – | 252 |
| Öhdəliklər və xərclər üzrə sair ehtiyatlar, cari | 30 | – |
| **Cəmi öhdəliklər (borc öhdəlikləri xaric)** | **3,006** | **1,547** |

30 iyun 2023-cü il tarixinə əlaqəli tərəflərə borc öhdəlikləri üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| **Borcverənin adı** | **Faiz dərəcəsi** | **Ödəniş tarixi** | **30 iyun 2023-cü il** |
|---|---|---|---|
| Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 0.10% - 1.50% | 15 dekabr 2029 – 1 aprel 2039 | 348 |
| Azərbaycan Beynəlxalq Bankı | 4.40% - 4.80% | 18 dekabr 2023 – 11 oktyabr 2026 | 293 |
| “Aqrarkredit” QSC | 0.16% - 5.00% | 1 mart 2027 – 1 yanvar 2041 | 77 |
| **Cəmi borc öhdəlikləri** | | | **718** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 4. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar (davamı)

### Əlaqəli tərəflərlə əhəmiyyətli əməliyyatlar və qalıqlar (davamı)

30 iyun 2023-cü il tarixinə əlaqəli tərəflərlə mövcud istiqrazlar üzrə kreditor borclarının qalıqlarına aşağıdakılar daxildir:

| İstiqraz sahibi | Kupon dərəcəsi | Ödəniş tarixi | 30 iyun 2023-cü il |
|---|---|---|---|
| ARDNF | 3.20% | 1 avqust 2030 | 861 |
| ARDNF | LIBOR + 4.00% | 31 dekabr 2029 | 734 |
| ARDNF | 3.80% | 1 sentyabr 2028 | 660 |
| ARDNF | 6.00% | 30 aprel 2032 | 516 |
| ARDNF | 4.60% | 31 dekabr 2029 | 422 |
| ARDNF | 3.40% | 30 dekabr 2030 | 340 |
| ARDNF | 3.80% | 1 noyabr 2029 | 300 |
| Azərbaycan İnvestisiya Şirkəti | 4.00% | 30 dekabr 2027 | 158 |
| ARDNF | LIBOR + 1.00% | 31 dekabr 2024 | 123 |
| Azərbaycan Beynəlxalq Bankı | 5.00% | 30 iyun 2025 | 111 |
| **Cəmi əlaqəli tərəflərə ödəniləcək istiqrazlar** | | | **4,225** |

Hökumət, Maliyyə Nazirliyi vasitəsilə, Qrupun ümumi 885 AZN (31 dekabr 2022-ci il: 1,021 AZN) məbləğində müəyyən borc öhdəlikləri üçün zəmanətçi qismində çıxış edir.

31 dekabr 2022-ci il tarixinə əlaqəli tərəflər üzrə qalıqlar aşağıda göstərilir:

| | Qeyd | Dövlət və onun nəzarətində olan müəssisələr | Asılı və birgə müəssisələr |
|---|---|---|---|
| Ticarət və sair maliyyə debitor borcları | | 133 | 2,028 |
| GKZ | | (40) | (6) |
| **Cəmi maliyyə debitor borcları** | | **93** | **2,022** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 4,423 | – |
| Məhdudlaşdırılmış pul vəsaitləri | | 87 | 89 |
| Sair cari maliyyə aktivləri | | – | 31 |
| **Cəmi cari aktivlər** | | **4,603** | **2,142** |
| Sair uzunmüddətli maliyyə aktivləri | | 947 | 221 |
| **Cəmi aktivlər** | | **5,550** | **2,363** |
| ARDNF qarşısında ticarət və sair kreditor borcları | | 2,674 | – |
| Ticarət və sair kreditor borcları | | 532 | 963 |
| **Cəmi maliyyə kreditor borcları** | | **3,206** | **963** |
| HPBS və asılı müəssisədəki payın satışı üçün alınmış avanslar | 17 | – | 5,270 |
| CQD-yə ödəniləcək təxirə salınmış ödəniş | | – | 456 |
| Öhdəliklər və xərclər üzrə digər ehtiyatlar, cari | | 30 | – |
| İcarə öhdəlikləri | | 235 | – |
| Müqavilə öhdəlikləri | | 73 | 45 |
| Digər uzunmüddətli öhdəliklər | | – | 105 |
| **Cəmi öhdəliklər (borc öhdəlikləri istisna olmaqla)** | | **3,544** | **6,839** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 4. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar (davamı)

### Əlaqəli tərəflərlə əhəmiyyətli əməliyyatlar və qalıqlar (davamı)

31 dekabr 2022-ci il tarixinə əlaqəli tərəflər üzrə borc öhdəliklərinin qalıqları aşağıda göstərilir:

| Borcverənin adı | Faiz dərəcəsi | Ödəniş tarixi | 2022 |
|---|---|---|---|
| Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 0.10% - 3.00% | 12 yanvar 2024 – 1 aprel 2039 | 386 |
| Azərbaycan Beynəlxalq Bankı | 4.00% - 4.80% | 24 aprel 2023 – 11 oktyabr 2026 | 382 |
| "Aqrarkredit" QSC | 0.16% - 5.00% | 1 mart 2027 – 4 yanvar 2041 | 81 |
| **Cəmi borc öhdəlikləri** | | | **849** |

31 dekabr 2022-ci il tarixinə əlaqəli tərəflər üzrə mövcud istiqrazlar üzrə kreditor borclarının qalıqları aşağıda göstərilir:

| İstiqraz sahibi | Kupon dərəcəsi | Ödəniş tarixi | 2022 |
|---|---|---|---|
| ARDNF | 3.20% | 1 avqust 2030 | 861 |
| ARDNF | LIBOR + 4.00% | 31 dekabr 2029 | 733 |
| ARDNF | 3.80% | 1 sentyabr 2028 | 648 |
| ARDNF | 4.60% | 31 dekabr 2029 | 411 |
| ARDNF | 3.40% | 30 dekabr 2030 | 340 |
| ARDNF | 3.80% | 1 noyabr 2029 | 321 |
| Azərbaycan İnvestisiya Şirkəti | 4.00% | 30 dekabr 2027 | 158 |
| ARDNF | LIBOR + 1.00% | 1 dekabr 2024 | 124 |
| Azərbaycan Beynəlxalq Bankı | 5.00% | 30 iyun 2025 | 111 |
| **Cəmi ödəniləcək istiqrazlar** | | | **3,707** |

30 iyun 2023-cü il tarixində başa çatan altı ay üzrə əlaqəli tərəflərlə əməliyyatlar aşağıda göstərilir:

| | Dövlət və onun nəzarətində olan müəssisələr | Asılı və birgə müəssisələr |
|---|---|---|
| Təbii qazın satışı | 205 | 905 |
| Neft məhsullarının satışı | 219 | 70 |
| Xam neftin satışı | – | 4,991 |
| Göstərilmiş xidmətlər | 77 | 153 |
| Əlaqəli tərəflərdən kredit üzrə alınacaq məbləğlər üzrə faiz gəliri | 9 | 51 |
| Əlaqəli tərəflərdən kreditlər üzrə maliyyə xərci | (73) | (13) |
| Kommunal xərclər | (43) | (2) |
| Sair əməliyyat xərcləri | (31) | (27) |
| Sair əməliyyat gəliri | 23 | 227 |
| Sosial xərclər | (7) | – |
| Paylaşdırma və nəqliyyat xərcləri | (60) | (561) |
| Ekologiya xidməti və ekoloji təhlükəsizlik | – | (5) |
| ƏTA və mal-material ehtiyatlarının satınalınması | (7,578) | (4,493) |
| Birgə müəssisələrdən alınmış dividendlər | – | 3 |
| Asılı müəssisələrdən alınmış dividendlər | – | 2 |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 4. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar (davamı)

### Əlaqəli tərəflərlə əhəmiyyətli əməliyyatlar və qalıqlar (davamı)

30 iyun 2022-ci il tarixində başa çatan altı ay üzrə əlaqəli tərəflərlə əməliyyatlar aşağıda göstərilir:

| | **Dövlət və onun nəzarətində olan müəssisələr** | **Asılı və birgə müəssisələr** |
|---|---|---|
| Təbii qazın satışı | 175 | 1,512 |
| Neft məhsullarının satışı | 304 | 26 |
| Xam neftin satışı | − | 6,397 |
| Göstərilmiş xidmətlər | 68 | 149 |
| Əlaqəli tərəflərdən kredit üzrə alınacaq məbləğlər üzrə faiz gəliri | 10 | 30 |
| Əlaqəli tərəflərdən kreditlər üzrə maliyyə xərci | (93) | (30) |
| Kommunal xərclər | (36) | (1) |
| Sair əməliyyat xərcləri | (18) | (31) |
| Sosial xərclər | (33) | − |
| Paylaşdırma və nəqliyyat xərcləri | (75) | (865) |
| Təhlükəsizlik xərcləri | (10) | − |
| Əmlak, tikili və avadanlıqlar və mal-material ehtiyatlarının alınması | (10,548) | (8,103) |
| Birgə müəssisələrdən alınmış dividendlər | − | 31 |
| Asılı müəssisələrdən alınmış dividendlər | − | 25 |

### Əlaqəli tərəflərlə əməliyyatların aparılması şərtləri və qaydaları

Dövlətə və dövlət nəzarəti altında olan müəssisələrə əsas yerli satışlar və onlardan satınalmalar Azərbaycan Hökuməti tərəfindən tənzimlənən bazar qiymətləri ilə həyata keçirilir. Hesabat tarixinə qalıqlar təminatlı deyil və hesablaşmalar nağd şəklində aparılır.

## 5. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və qısamüddətli depozitlər

| | **30 iyun 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| ABŞ dolları ilə bank qalıqları | 5,536 | 9,950 |
| AZN ilə bank qalıqları | 1,489 | 1,591 |
| AVRO ilə bank qalıqları | 583 | 420 |
| CHF ilə bank qalıqları | 135 | 85 |
| TRY ilə bank qalıqları | 252 | 438 |
| Sair valyuta ilə bank qalıqları | 94 | 28 |
| Yolda olan pul vəsaitləri | 231 | 6 |
| Kassada olan pul vəsaitləri | 15 | 16 |
| GKZ | (44) | (44) |
| **Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **8,291** | **12,490** |

### Depozitlər

30 iyun 2023-cü il tarixinə müddətli depozitlərə cəmi 643 AZN (31 dekabr 2022-ci il: 531 AZN) məbləğində müddəti bir il olan, müqavilə ilə təyin olunmuş sabit faiz dərəcəsi illik 1-3 faiz arasında dəyişən qoyuluşlar daxildir (31 dekabr 2022-ci il: illik 1-3 faiz).

30 iyun 2023-cü il tarixinə Qrup depozitlər üzrə 7 AZN (31 dekabr 2022-ci il: 3 AZN) məbləğində GKZ tanımışdır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 6. Məhdudlaşdırılmış pul vəsaitləri

| | 30 iyun 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Əmtəə alışları üçün məhdudlaşdırılmış pul vəsaitləri | 270 | 196 |
| ƏDV depoziti | 84 | 91 |
| Sair məhdudlaşdırılmış pul vəsaitləri | 56 | 56 |
| Çıxılsın: GKZ | (38) | (38) |
| **Cəmi məhdudlaşdırılmış pul vəsaitləri** | **372** | **305** |

## 7. Ticarət və sair debitor borcları

| | 30 iyun 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Ticarət debitor borcları | 7,412 | 8,281 |
| Sair debitor borcları | 409 | 345 |
| Çıxılsın: GKZ | (953) | (908) |
| **Cəmi maliyyə debitor borcları** | **6,868** | **7,718** |
| Büdcədən tələb edilə bilən ƏDV | 918 | 972 |
| Avans ödənişləri | 680 | 667 |
| Vergilər üzrə debitor borcları | 310 | 207 |
| Anderlift neft qalığı | 67 | 61 |
| Sair | 77 | 105 |
| **Cəmi ticarət və sair debitor borcları** | **8,920** | **9,730** |

Ticarət debitor borcları, əsasən, Qrupun müştərilərinə satılmış xam neft, neft məhsulları və təbii qaza görə alınacaq borcları əks etdirir.

Büdcədən tələb edilə bilən ƏDV hesabat tarixinə alışlar üzrə əvəzləşdirilməmiş ƏDV-ni əks etdirir. Büdcədən tələb edilə bilən ƏDV alışlar üçün ödəniş aparıldıqda satışlar üzrə ƏDV ilə əvəzləşdirilə bilər.

Aşağıdakı cədvəldə ticarət debitor borcları üzrə GKZ ehtiyatında hərəkət göstərilir:

| | 2023 | 2022 |
|---|---|---|
| **1 yanvar tarixində** | **908** | **686** |
| GKZ xərci | 52 | 110 |
| Qaytarılmış kredit zərəri | (2) | (6) |
| Silinmə | (2) | (3) |
| Məzənnə çevrilməsindən yaranan fərq | (3) | (1) |
| **30 iyun tarixində** | **953** | **786** |

## 8. Əmlak, tikili və avadanlıqlar

Əmlak, tikili və avadanlıqların balans dəyərinin hərəkəti aşağıdakı kimi olmuşdur:

| | **Neft-qaz əmlakı və avadanlığı** | **Sair** | **Tamamlan-mamış tikinti** | **Cəmi** |
|---|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixinə balans dəyəri** | **19,806** | **7,877** | **3,218** | **30,901** |
| Əlavələr | 441 | 299 | 678 | **1,418** |
| Silinmələr | (2) | (10) | (1) | **(13)** |
| Satış üçün saxlanılan aktivlərə/aktivlərdən yenidən təsnifat | (3,385) | 42 | − | **(3,343)** |
| Köçürmələr | 38 | 20 | (58) | **−** |
| İstismardan çıxarma öhdəliklərində təxminlərdə dəyişiklik | (522) | (14) | − | **(536)** |
| Köhnəlmə xərci | (653) | (325) | − | **(978)** |
| Dəyərsizləşmə xərci (Qeyd 2) | (54) | − | (52) | **(106)** |
| Hesabat valyutasına çevirmə* | 2 | 898 | 766 | **1,666** |
| **30 iyun 2022-ci il tarixinə balans dəyəri** | **15,671** | **8,787** | **4,551** | **29,009** |
| | | | | |
| **1 yanvar 2023-cü il tarixinə balans dəyəri** | **15,938** | **10,060** | **3,903** | **29,901** |
| Əlavələr | 519 | 194 | 581 | **1,294** |
| Silinmələr | (1) | − | (1) | **(2)** |
| İstismardan çıxarma öhdəliklərində təxminlərdə dəyişiklik | 63 | 8 | − | **71** |
| Köçürmələr | 139 | 150 | (289) | **−** |
| Köhnəlmə xərci | (554) | (339) | − | **(893)** |
| Dəyərsizləşmə xərci (Qeyd 2) | (25) | − | (47) | **(72)** |
| Hesabat valyutasına çevirmə* | (20) | 374 | (691) | **(337)** |
| **30 iyun 2023-cü il tarixinə balans dəyəri** | **16,059** | **10,447** | **3,456** | **29,962** |

* *Hesabat valyutasından çevirmədə hiperinflyasiyanın təsiri də daxildir (Qeyd 2).*

30 iyun 2023-cü il tarixində başa çatan altı ay ərzində Qrup əsasən aktivlərin tikintisi ilə əlaqədar 78 AZN (30 iyun 2022-ci il: 58 AZN) məbləğində maliyyə xərclərini kapitallaşdırmışdır.

## 9. Birgə və asılı müəssisələrə investisiyalar

30 iyun 2023-cü il tarixində başa çatan altı ay ərzində Qrup “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC ilə “SA MARITIME AFEZCO” birgə müəssisəsini təsis etmişdir. Qrup, birgə müəssisədə 50 faizlik payın mülkiyyətçisidir. Dövr ərzində Qrup təsis edilmiş birgə müəssisənin səhm kapitalına 123 AZN (72.5 milyon ABŞ dolları) məbləğində vəsait qoyuluşu etmişdir.

## 10. Sair uzunmüddətli aktivlər

30 iyun 2023-cü il tarixinə sair uzunmüddətli aktivlər əsasən 288 AZN (31 dekabr 2022-ci il: 235 AZN) məbləğində əmlak, tikili və avadanlıqların alınması üçün uzunmüddətli avans ödənişləri, 115 AZN (31 dekabr 2022-ci il: 105 AZN) məbləğində uzunmüddətli ƏDV üzrə debitor borcu, 37 AZN (31 dekabr 2022-ci il: 36 AZN) məbləğində xalis müəyyən edilmiş fayda aktivləri əks etdirir.

## 11. Sair cari maliyyə aktivləri

30 iyun 2023-cü il tarixində başa çatan altı ay ərzində Qrup 4.75 faiz orta faiz dərəcəsi ilə xalis 1,514 AZN məbləğində ABŞ-ın xəzinə veksellərini əldə etmişdir. Qrup bütün bu alətləri SMGƏD-də təsnif etmişdir.

## 12. Ticarət və sair kreditor borcları

| | 30 iyun 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Ticarət kreditor borcları | 5,365 | 7,269 |
| Hesablanmış öhdəliklər | 2,878 | 2,350 |
| Sair kreditor borcları | 1,391 | 1,298 |
| **Cəmi maliyyə kreditor borcları** | **9,634** | **10,917** |
| İşçilərə ödəniləcək məbləğlər | 468 | 591 |
| **Cəmi ticarət və sair kreditor borcları** | **10,102** | **11,508** |

Ticarət kreditor borclarına əsasən Qrupun təchizatçıları tərəfindən təqdim edilmiş xam neft, neft məhsulları, qaz, tikinti, qazma, nəqletmə və kommunal xidmətlərlə bağlı ödəniləcək vəsaitlər daxildir.

Qrupun hesablanmış öhdəlikləri alınmış xam neft və neft məhsulları üçün hələ hesab-faktura kəsilməmiş öhdəliklərdən ibarətdir.

**Müqavilə öhdəlikləri**

Müqavilə öhdəlikləri əsasən tikinti layihələri və mal və xidmətlərin satışı üçün alınmış, müvafiq olaraq, 235 AZN (31 dekabr 2022-ci il: 244 AZN) və 276 AZN (31 dekabr 2022-ci il: 1,078 AZN) məbləğində avans ödənişlərdən ibarətdir.

## 13. Borc öhdəlikləri

30 iyun 2023-cü il tarixinə Qrupun qısamüddətli borc öhdəlikləri və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi aşağıdakılardan ibarət olmuşdur:

| Vəsaitlər | Faiz dərəcəsi | Ödəniş tarixi | İlkin valyutada cəmi borc öhdəliyi | 30 iyun 2023-cü il tarixində balans |
|---|---|---|---|---|
| ABŞ dolları ilə qısamüddətli vəsaitlər | 1.00%-12.00% | iyul 2023 − iyun 2024 | 2,646 | 2,990 |
| Türk lirəsi ilə qısamüddətli vəsaitlər | 13.07%-40.25% | iyul 2023 − iyun 2024 | 4,515 | 309 |
| Gürcüstan larisi ilə qısamüddətli vəsaitlər | 10.00%-16.25% | iyul 2023 – iyun 2024 | 431 | 202 |
| Avro ilə qısamüddətli vəsaitlər | 1.64%-8.34% | iyul 2023 – mart 2024 | 76 | 130 |
| Sair valyutalarda qısamüddətli vəsaitlər | 7.00%-22.50% | iyul 2023 – iyun 2024 | 2,047 | 119 |
| Uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | | | | 1,777 |
| **Cəmi qısamüddətli borc öhdəlikləri və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi** | | | | **5,527** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 13. Borc öhdəlikləri (davamı)

30 iyun 2023-cü il tarixinə Qrupun uzunmüddətli borc öhdəlikləri aşağıdakılardan ibarət olmuşdur:

| | | | 30 iyun 2023-cü il tarixinə qalıq | |
|---|---|---|---|---|
| **Vəsaitlər** | **Faiz dərəcəsi *** | **Ödəniş tarixi** | **Uzunmüddətli hissə** | **Cari hissə** |
| 750 milyon ABŞ dolları | 6.95% | mart 2030 | 1,061 | 28 |
| 500 milyon ABŞ dolları | 3.20% | avqust 2030 | 740 | 121 |
| 500 milyon ABŞ dolları | SOFR+3.75% | dekabr 2026 | 650 | 203 |
| 431 milyon ABŞ dolları | LIBOR+4.00% | dekabr 2029 | 623 | 110 |
| 565 milyon ABŞ dolları | 3.80% | sentyabr 2028 | 534 | 127 |
| 300 milyon ABŞ dolları | LIBOR+3.45% | avqust 2026 | 523 | 17 |
| 300 milyon ABŞ dolları | LIBOR +3.70% | mart 2026 | 523 | 1 |
| 300 milyon ABŞ dolları | SOFR+5.60% | fevral 2026 | 521 | 22 |
| 300 milyon ABŞ dolları | 6.00% | aprel 2032 | 510 | 6 |
| 300 milyon ABŞ dolları | SOFR+3.95% | dekabr 2026 | 395 | 118 |
| 242 milyon ABŞ dolları | 4.60% | dekabr 2029 | 350 | 71 |
| 200 milyon ABŞ dolları | 5.00% | iyun 2025 | 340 | − |
| 200 milyon ABŞ dolları | 3.40% | dekabr 2030 | 296 | 44 |
| 155 milyon ABŞ dolları | LIBOR+3.45% | avqust 2026 | 270 | 9 |
| 150 milyon ABŞ dolları | LIBOR+3.45% | avqust 2026 | 262 | 9 |
| 200 milyon ABŞ dolları | 3.80% | noyabr 2029 | 252 | 47 |
| 122 milyon Avro | EURIBOR+3.45% | avqust 2026 | 233 | 6 |
| 122 milyon Avro | EURIBOR+3.45% | avqust 2026 | 232 | 6 |
| 130 milyon ABŞ dolları | LIBOR+3.45% | avqust 2026 | 227 | 7 |
| 212 milyon ABŞ dolları | LIBOR+4.675% | mart 2028 | 222 | 43 |
| 100 milyon Avro | EURIBOR+3.45% | avqust 2026 | 190 | 5 |
| 251 milyon Avro | EURIBOR+3.03% | dekabr 2027 | 174 | 55 |
| 100 milyon ABŞ dolları | 12.13% | avqust 2027 | 170 | − |
| 100 milyon ABŞ dolları | 4.50% | noyabr 2026 | 165 | 2 |
| 249 milyon Avro | EURIBOR+0.95% | dekabr 2027 | 164 | 55 |
| 489 milyon ABŞ dolları | LIBOR+5.95% | iyun 2025 | 162 | − |
| 75 milyon ABŞ dolları | LIBOR+3.45% | avqust 2026 | 131 | 4 |
| 82 milyon ABŞ dolları | 0.10% | dekabr 2029 | 118 | 2 |
| 82 milyon ABŞ dolları | 0.10% | dekabr 2029 | 110 | 8 |
| 15398 milyon Yapon Yeni | 1.50% | aprel 2039 | 92 | 6 |
| 78 milyon ABŞ dolları | 4.00% | dekabr 2027 | 86 | 72 |
| 150 milyon ABŞ dolları | 4.60% | dekabr 2024 | 85 | 89 |
| 300 milyon ABŞ dolları | LIBOR+2.50% | noyabr 2024 | 84 | 178 |
| 90 milyon ABŞ dolları | 4.80% | avqust 2026 | 77 | 33 |
| Əmtəə forvard müqavilələri | 873 | Novatek əqdinin opsionluğu JKM və Brent 301 (Novatek) arasında spred opsionu kimi modelləşdirilir. Dəqiq analitik həll mövcud deyil və qiymətləndirmə Monte Carlo simulyasiyaları vasitəsilə aparılır. | Japan Korea Market (JKM) və Dutch Title Transfer Facility (TTF) fyuçerslərin spredi 2025 - 2026-cı illərdə müşahidə edilmir | 17.655 ABŞ dollarından 19.632 ABŞ dollarınadək | Diskont dərəcəsində 10% dəyişiklik ədalətli dəyərdə +90/-90 AZN artım/azalma ilə nəticələnəcək |
| TANAP-a kapital investisiyası | 770 | Diskontlaşdırılmış dividend modeli | Diskont dərəcəsi | 11.9%-dən 15.9%-dək | Diskont dərəcəsində 2% dəyişiklik ədalətli dəyərdə +178/-148 AZN artım/azalma ilə nəticələnəcək |
| *MZƏD ilə sair uzunmüddətli maliyyə öhdəlikləri* | | | | | |
| Əmtəə forvard müqavilələri | (948) | Novatek əqdinin opsionluğu JKM və Brent 301 (Novatek) arasında spred opsionu kimi modelləşdirilir. Dəqiq analitik həll mövcud deyil və qiymətləndirmə Monte Carlo simulyasiyaları vasitəsilə aparılır. | Japan Korea Market (JKM) və Dutch Title Transfer Facility (TTF) fyuçerslərin spredi 2025 - 2026-cı illərdə müşahidə edilmir | 11.565 ABŞ dollarından 13.087 ABŞ dollarınadək | Qiymətdə 10% dəyişiklik ədalətli dəyərdə +101/-101 AZN artım/azalma ilə nəticələnəcək |

## 21. Mənfəət vergisi

Mənfəət vergisi xərci aşağıdakılardan ibarətdir:

| | 30 iyun 2023-cü il | 30 iyun 2022-ci il |
|---|---|---|
| Cari vergi xərci | 402 | 558 |
| Təxirə salınmış vergi xərci | 74 | 237 |
| **Mənfəət və ya zərərdə mənfəət vergisi xərci** | **476** | **795** |
| **Sair məcmu gəlirdə tanınmış təxirə salınmış vergi** | **(16)** | **8** |

## 22. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri

### Əməliyyat mühiti

*Azərbaycan*

Qrupun əməliyyatları əsas etibarı ilə Azərbaycan Respublikasında həyata keçirilir. Azərbaycan iqtisadiyyatı neft-qaz qiymətlərinə xüsusilə həssasdır. Son illər Azərbaycan hökuməti daha tarazlaşdırılmış iqtisadiyyata keçidi sürətləndirmək və neft-qaz sektorundan asılılığı azaltmaq üçün ciddi iqtisadi və sosial islahatları həyata keçirir.

Qlobal təchizat zəncirlərinin pozulması, Rusiya Federasiyası ilə Ukrayna arasındakı münaqişə, eləcə də istehlakçıların mallara olan tələbatının artması 2022-ci ildə qlobal iqtisadiyyata əhəmiyyətli inflyasiya təzyiqlərinin yaranması, o cümlədən əmtəə qiymətlərinin kəskin artması ilə nəticələnmişdir. 2023-cü ilin birinci yarısında neft və qazın bazar qiymətinin aşağı düşməsi tendensiyası fonunda yuxarıda qeyd olunan amillərin qlobal iqtisadiyyata təsiri bir qədər azalmışdır.

Bir çox ölkələrdə inkişaf etmiş iqtisadiyyatlarda 2022-ci ildə siyasətçilər balanslarını azaltmaq və faiz dərəcələrini aqressiv şəkildə artırmaqla pul siyasətlərini sərtləşdirməyə üz tutmuşlar. 2023-cü ilin birinci yarısında qlobal miqyasda ölkələr üzrə nisbətən sabit pul siyasəti müşahidə olunmuşdur.

Beynəlxalq kredit reytinqi agentlikləri mütəmadi olaraq Azərbaycanın və Qrupun kredit reytinqini qiymətləndirir. 30 iyun 2023-cü il tarixinə Fitch Azərbaycan Respublikasının və Qrupun reytinqini "BB+" səviyyəsində, lakin S&P, Azərbaycan Respublikasının reytinqini "BB+", Qrupun reytinqini isə "BB-" səviyyəsində qiymətləndirmişdir. Moody's İnvestors Service agentliyi Azərbaycanın və Qrupun kredit reytinqini "Ba1" səviyyəsində müəyyən etmişdir.

*Türkiyə iqtisadiyyatı*

Qrupun Türkiyədəki fəaliyyətinə 2022-ci ildə Türkiyə iqtisadiyyatının qeyri-sabitliyi, əhəmiyyətli inflyasiya və yerli valyutanın əsas xarici valyutalara nisbətdə devalvasiyası təsir göstərmişdir. 2023-cü ildə inflyasiya meylləri davam etsə də, 2022-ci və 2021-ci illərdə olduğu kimi sərt olmamışdır. Belə ki, 2023-cü il ərzində Türk Lirəsi (TL) AZN də daxil olmaqla, əsas valyutalara nisbətdə 26 faiz dəyər itirmişdir (30 iyun 2022-ci il: 23 faiz).

Türkiyə Statistika Təşkilatı 2022-ci ilin mart ayında 3 illik və 12 aylıq məcmu inflyasiya dərəcəsini, müvafiq olaraq, 109 faiz və 61 faiz təşkil etdiyini bildirmişdir. Həmin tarixdən etibarən Türkiyə hiperinflyasiya iqtisadiyyatı meyarlarına uyğun oldu. 2023-cü ilin iyun ayına olan məlumata görə, Türkiyə Statistika Təşkilatı 3 illik və 6 aylıq məcmu inflyasiyanın müvafiq olaraq 190 faiz və 20 faiz olduğunu bildirmişdir. Buna görə də rəhbərlik, Türkiyəni 30 iyun 2023-cü il tarixinə hiperinflyasiyalı hesab etmişdir.

2023-cü ilin iyun ayınadək inflyasiyanın artım tempinin yavaşlaması şəraitində Türkiyə iqtisadiyyatında inflyasiyadan sağalma əlamətləri müşahidə olunmuşdur. Məcmu daxili tələbin və ixracın artması iqtisadi fəallığa təkan vermişdir.

Ümumi daxili məhsul (ÜDM) 30 iyun 2023-cü il tarixində başa çatan altı aylıq dövr ərzində 3.9 faiz artmışdır.

*Rusiya və Ukrayna arasında hərbi münaqişə*

Hesabat tarixinə Qrupun Rusiya Federasiyasında və Ukraynada törəmə müəssisələri olmuşdur.

30 iyun 2023-cü il tarixinə Rusiya Federasiyasında yerləşən törəmə müəssisənin ümumi aktivləri və öhdəlikləri müvafiq olaraq 163 AZN və 143 AZN təşkil etmişdir. Aktivlər əsasən ticarət debitor borcları və mal-material ehtiyatlarından ibarət olmuşdur. Öhdəliklər əsasən ticarət kreditor borcları və qısamüddətli borc öhdəliklərindən ibarət olmuşdur.

30 iyun 2023-cü il tarixinə Qrupun Rusiya Federasiyasında üçüncü tərəflərlə sair qalıqları olmuşdur ki, bunlar əsasən cəmi 1,783 AZN məbləğində Rusiya banklarına kreditlər üzrə ödəniləcək məbləğlərdən ibarət olmuşdur.

## 22. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### Əməliyyat mühiti (davamı)

30 iyun 2023-cü il tarixinə Ukraynada yerləşən törəmə müəssisənin cəmi aktivləri və öhdəlikləri müvafiq olaraq 143 AZN və 85 AZN təşkil etmişdir. Aktivlər əsasən ticarət debitor borcları, əmlak, tikili və avadanlıqlar, istifadə hüququ olan aktivlər və mal-material ehtiyatlarından ibarət olmuşdur. Öhdəliklər əsasən ticarət kreditor borclarından, müqavilə öhdəlikləri və qısamüddətli borc öhdəliklərindən ibarət olmuşdur.

30 iyun 2023-cü il tarixinə Qrupun Ukraynada üçüncü tərəflərlə sair qalıqları olmuşdur ki, bunlar əsasən cəmi 73 AZN məbləğində bir üçüncü tərəfdən alınacaq qalıqdan ibarət olmuş və bunun üçün 100 faiz GKZ yaradılmışdır.

24 fevral 2022-ci il tarixində Rusiya ilə Ukrayna arasında hərbi münaqişə yaranmışdır. Bunun ardınca bir sıra qərb və digər ölkələr Rusiya iqtisadiyyatına qarşı sanksiyalar tətbiq etməyə başlamışlar. Sanksiyalar kifayət qədər geniş olmuş və banklar, bizneslər, valyuta mübadiləsi, bank köçürmələri, ixrac və idxal kimi sahələri əhatə etmişdir. Münaqişə başlayandan etibarən Rusiya və xüsusilə xarici bazarlarda Rusiyanın kapital və borc qiymətli kağızlarının dəyərində əhəmiyyətli azalma müşahidə olunmuşdur.

Sanksiyaların ciddiliyinə baxmayaraq, indiyədək Rusiya iqtisadiyyatındakı tənəzzül gözləniləndən daha yavaş olmuşdur, buna səbəb isə Rusiya Federasiyasının əsas gəlir mənbəyi olan neft-qaz qiymətlərinin artması, eləcə də qlobal neft və qaz nəqli marşrutlarında düzəliş etməklə Rusiyadan karbohidrogenlərin ixracı həcminin sabitliyinin müəyyən dərəcədə qorunmasıdır.

Münaqişə başlayandan və 30 iyun 2023-cü il tarixində başa çatan altı ay ərzində Ukrayna iqtisadiyyatı insan kapitalının miqrasiyası, nəqliyyat şəbəkələrində pozuntular və hərbi istehsala diqqətin artırılması kimi amillərin mənfi təsirinə məruz qalmışdır. İnflyasiya sürəti yavaşlayaraq 2023-cü ilin iyun ayında illik 12.8 faiz səviyyəsinə çatmışdır.

Müharibədən əvvəl Ukraynaya yanacaq idxalının əsas hissəsi Rusiya və Belarusun payına düşürdü. Bu tədarükün kəsilməsi Ukraynada xüsusilə pərakəndə satış üçün yanacağın müvəqqəti çatışmazlığına səbəb olmuşdur.

Müharibə nəticələrinin davam edəcəyi, istehsal gücünün əhəmiyyətli azalması, əkin sahələrinə ziyan vurulması və işçi qüvvəsinin azalması nəticəsində iqtisadiyyata ciddi zərbə dəyəcəyi gözlənilir.

30 iyun 2023-cü il tarixinə Qrup müharibə ilə əlaqədar onun dəyərsizləşməsinə, gözlənilən kredit zərəri və ədalətli dəyər qiymətləndirmələrinə dair ən yaxşı təxminlərini istifadə etmişdir.

Qrupun rəhbərliyi cari mühitdəki dəyişiklikləri izləyir və yaxın gələcəkdə Qrupun biznesinin davamlılığını və inkişafını dəstəkləmək üçün zəruri hesab etdiyi ehtiyat tədbirləri görür.

### Ətraf mühitin qorunması ilə bağlı məsələlər

Hazırda Azərbaycan Respublikasında ətraf mühitin qorunması haqqında qanunvericilik təkmilləşdirilir və ona əməl olunması ilə bağlı hökumət orqanlarının mövqeyinə yenidən baxılır. Qrup, ətraf mühitin qorunması ilə bağlı öhdəliklərini mütəmadi olaraq qiymətləndirir. Öhdəliklər müəyyən edildikcə dərhal uçota alınır.

Mövcud qanunvericiliyin və normativ aktların dəyişməsi nəticəsində yarana bilən, eləcə də məhkəmə praktikası nəticəsində kifayət qədər dəqiqliklə qiymətləndirilə bilməyən potensial öhdəliklər əhəmiyyətli ola bilər. Rəhbərlik hesab edir ki, ətraf mühitin qorunması haqqında qüvvədə olan qanunvericiliyə əməl olunması üzrə mövcud nəzarət sistemi şəraitində ətraf mühitə zərər vurulması ilə bağlı Qrup tərəfindən ətraf mühitin bərpası öhdəliyi üzrə yaradılmış ehtiyatdan artıq əhəmiyyətli öhdəliklər mövcud deyil (Qeyd 14).

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 22. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### Ətraf mühitin qorunması ilə bağlı məsələlər (davamı)

Qrup öz məhsulları, əməliyyatları və sair fəaliyyətləri ilə əlaqədar olaraq ətraf mühitin qorunması haqqında bir sıra qanun və qaydalara riayət etməlidir. Bu qanun və qaydalara əsasən, Qrup və ya sair müəssisələr tərəfindən əvvəlki illərdə kimyəvi və ya neft maddələrinin ləğv edilməsi və ya tullantısı nəticəsində ətraf mühitə dəymiş ziyanı aradan qaldırmalıdır. Qrup cərimələrin tətbiqinə gətirə biləcək pozuntu risklərinin qarşısını almaq üçün ətraf mühitin qorunması ilə bağlı fəaliyyətini izləyir. Bu cür vəziyyətlər neftayırma zavodları, kimya müəssisələri, neft mədənləri, xidmət məntəqələri, terminallar və tullantıların ləğv edilməsi məntəqələri kimi müxtəlif ərazilərdə mövcud ola bilər. Bundan əlavə, Qrupun əvvəlki illərdə satılmış aktivlər və ya bağlanmış obyektlər ilə bağlı öhdəlikləri ola bilər. Ətraf mühitə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı əsas tələb və bununla bağlı xərcləri müəyyən etmək mahiyyətcə çətindir. Lakin, ətraf mühit üzrə məlum öhdəliklərin qiymətləndirilmiş dəyəri Qrupun uçot siyasətinə uyğun olaraq hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilmişdir.

Gələcək xərclərin məbləğinin nəzərə çarpan ola bilməsi və bu cür xərclərin qeydə alındığı dövrdə Qrupun əməliyyat nəticələri üçün əhəmiyyətli ola bilməsinə baxmayaraq bununla bağlı məbləğlərin müəyyən edilməsi praktiki deyildir. Qrup, bu cür xərclərin Qrupun maliyyə vəziyyətinə və ya likvidliyinə əhəmiyyətli dərəcədə təsir göstərəcəyini gözləmir.

Qrup həmçinin neft və təbii qaz hasilatı obyektlərinin və əlaqəli kəmərlərin istismardan çıxarılması ilə bağlı öhdəliklər daşıyır. Bu fəaliyyət növləri ilə bağlı təxmin edilmiş xərclər üzrə ehtiyat yaradılır, lakin həmin öhdəliklərin uzunmüddətli olmasına görə, bu cür xərclərin məbləği və vaxtı ilə bağlı qeyri-müəyyənlik mövcuddur (Qeyd 14).

Qrup, bu cür ehtiyatlar üzrə dəqiqliklə təxmin edilə biləcək hər hansı dəyişikliyin Qrupun əməliyyat nəticələri, maliyyə vəziyyəti və ya likvidliyinə təsirinin əhəmiyyətli olmayacağını hesab edir.

### İqlim dəyişikliyi ilə bağlı risk və imkanlar

Korporativ riskin idarəedilməsi və daxili nəzarət sistemləri çərçivəsində Qrup illik əsasla onun işgüzar fəaliyyətinin iqlim dəyişikliyinə təsiri ilə bağlı risk və imkanları müəyyən edir və qiymətləndirir. İnvestisiya qərarlarını verərkən sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit (SƏTƏM), ekologiya və iqlim dəyişikliyi ilə bağlı risklər təhlil edilir.

İri layihələr üçün Qrupun strateji məqsədlərinə, ekoloji standartlara və Azərbaycan və beynəlxalq qanunvericiliyin tələblərinə uyğunluğun təhlili, eləcə də ətraf mühitə təsirlə bağlı xarici risklərin (qanunvericilikdə dəyişikliklər, texnologiyalarda dəyişikliklər, bazar riskləri, reputasiya riskləri və s.) təhlili və qiymətləndirilməsi həyata keçirilir. Bundan əlavə, Qrupun uzunmüddətli strateji idarəetmə və biznes planlaşdırma proseslərində iqlim dəyişikliyi və aşağı karbonlu enerjiyə keçidlə bağlı risk və imkanlar nəzərə alınır.

### Vergi qanunvericiliyi

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair rəhbərliyin şərhlərinə müvafiq səlahiyyətli orqanlar tərəfindən etiraz edilə bilər.

Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fiskal fəaliyyət dövrü yoxlanıla bilər. Xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Qrupun rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, valyuta və gömrüklə bağlı Qrupun mövqeləri qorunacaq və Qrupun potensial vergi öhdəlikləri hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında qeydə alınmış məbləğlərdən artıq olmayacaqdır. Müvafiq olaraq, 30 iyun 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 22. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

**SOCAR İsveçrənin öhdəlikləri**

Qrupun növbəti illər üçün bir neçə kapital öhdəlikləri vardır. Qrup kapital ehtiyatlarını 38 AZN (20 milyon İsveçrə frankı) (31 dekabr 2022-ci il: 42 AZN (23 milyon İsveçrə frankı)) məbləğində qiymətləndirir.

**Məhkəmə prosedurları**

Vaxtaşırı olaraq və fəaliyyətin adi gedişində Qrupa qarşı iddialar irəli sürülür. Qrupun rəhbərliyi öz təxminlərinə və daxili və xarici peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı müvafiq olaraq hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün yaradılmış ehtiyatlardan başqa heç bir əhəmiyyətli zərər olmayacaqdır.

**Qaz alışlarına aid məhkəmə prosedurları**

Qaz alışları müqavilələrinin şərtlərinə əsasən, müəyyən müqavilə şərtləri qarşılandıqda Qrupun təbii qazı Türkiyəyə idxal edən təchizatçıları Qrupa retrospektiv qiymət düzəlişləri tətbiq etmək hüququna malikdirlər. 30 iyun 2023-cü il tarixinə Qrupun müqavilə üzrə öhdəlikləri riskinin maksimal həddi 71 AZN (31 dekabr 2022-ci il: 71 AZN) olmuşdur. 30 iyun 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda bu öhdəliklərlə bağlı ehtiyat tanınmamışdır.

**Maliyyə razılaşmaları ilə uyğunluq**

30 iyun 2023-cü il tarixinə Qrupun investisiya və əməliyyat fəaliyyətini maliyyələşdirmək üçün cəmi 16,705 AZN məbləğində kredit üzrə ödəniləcək məbləğləri olmuşdur. Qrup bu borc öhdəliklərinin əksəriyyətinə aid olan müəyyən maliyyə razılaşmalarını imzalamışdır. Bu razılaşmaların yerinə yetirilməməsi Qrup üçün mənfi nəticələrə, o cümlədən borclanmanın bahalaşması və öhdəliklərin pozulmasının bəyan edilməsinə gətirə bilər. Rəhbərlik hesab edir ki, 30 iyun 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə Qrup tətbiq edilən bütün maliyyə razılaşmalarını yerinə yetirmişdir (31 dekabr 2022-ci il: 18,880 AZN).

**Maliyyə zəmanətləri, girovlar, təminatlar və ipotekalar**

Qrup, əlaqəli tərəfdən alınmış kredit üçün 134 AZN məbləğində təbii qazın və xam neftin satışından əldə olunan gəlirlərlə əlaqədar gələcək pul vəsaitlərinin daxilolmalarını girov qoymuşdur (31 dekabr 2022-ci il: 172 AZN).

*SOCAR Baş Ofisi*

STAR layihəsinin maliyyələşdirilməsi əməliyyatının bir hissəsi olaraq imzalanmış Səhm Kapitalına Dəstək və Saxlama Razılaşmasına ("SKDSR") uyğun olaraq Qrup müəyyən banklarla cəmi 799 AZN (470 milyon ABŞ dolları) məbləğində akkreditiv razılaşmaları imzalamışdır (31 dekabr 2022-ci il: 750 AZN (441 milyon ABŞ dolları)).

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 22. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### Maliyyə zəmanətləri, girovlar, təminatlar və ipotekalar (davamı)

*SOCAR Türkiye Enerji A.Ş. ("STEAŞ")*

Aşağıdakı cədvəldə Qrupun STEAŞ ilə əlaqədar aldığı və verdiyi zəmanətlər təqdim edilir:

| | **30 iyun 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| **Alınmış zəmanətlər** | | |
| Birbaşa sifarişlərin toplanması sistemi çərçivəsində bank zəmanətləri | 268 | 329 |
| Sığorta üzrə alınacaq məbləğ | 1,162 | 823 |
| Müştərilərdən alınmış zəmanət məktubları | 284 | 340 |
| Alınmış akkreditivlər | 17 | 2 |
| Təchizatçılardan alınmış zəmanət məktubları | 86 | 87 |
| Sair | 2 | 3 |
| **Cəmi alınmış zəmanətlər** | **1,819** | **1,584** |
| **Verilmiş zəmanətlər** | | |
| Verilmiş zəmanətlər | 125 | 134 |
| **Cəmi verilmiş zəmanətlər** | **125** | **134** |
| **Girovlar, təminatlar və ipotekalar (GTİ)** | | |
| Petkim tərəfindən Petlim krediti üzrə təqdim edilmiş GTİ* | 265 | 280 |
| Petkim üçün təqdim edilmiş GTİ | 1 | 40 |
| **Petkim tərəfindən təqdim edilmiş cəmi GTİ** | **266** | **320** |

* *2015-ci il ərzində Qrupun törəmə müəssisəsi Petkim-in 70 faiz paya sahib olduğu Petlim Limancılık Ticaret A.Ş, konteyner portu layihəsinin kənardan maliyyələşdirilməsi məqsədilə maliyyə təşkilatı ilə 360 AZN (212 milyon ABŞ dolları) məbləğində ödəmə müddəti 13 il olan layihənin maliyyələşdirilməsi haqqında kredit razılaşması imzalamışdır. Razılaşmada ilk 3 illik müddətdə ödənişlərin aparılmayacağı nəzərdə tutulur. Kredit alınana Petkim kreditin qaytarılmasına zəmanət olaraq 7 AZN (105 milyon Türk lirəsi) məbləğində Petlimdə olan səhmlərini və 595 AZN (350 milyon ABŞ dolları) məbləğində ipoteka kreditini girov qoymuşdur. 30 iyun 2023-cü il tarixinə Petlim-in 265 AZN (156 milyon ABŞ dolları) məbləğində kredit qalığı olmuşdur. Layihə əməliyyat dövrü ərzində qüvvədə olan maliyyə razılaşmalarını nəzərdə tutur.*

*SOCAR Trading Holding*

30 iyun 2023-cü il tarixinə SOCAR Trading Holding neft və neft məhsullarının alınması üçün banklar tərəfindən SOCAR Trading Holding-ə verilmiş akkreditivlər qarşılığında 1,857 AZN (31 dekabr 2022-ci il: 2,275 AZN) məbləğində müəyyən aktivləri girov qoymuşdur. Girov qoyulmuş aktivlər əsasən ticarət debitor borcları və mal-material ehtiyatları ilə təmsil olunmuşdur.

### Kapital öhdəlikləri

*AÇG HPBS-də iştirak payı*

30 iyun 2023-cü il tarixinə AÇG HPBS-nin Operatoru olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti bir sıra kapital öhdəlikləri üzrə müqavilələr imzalamışdır. Qrup həmin öhdəliklərdə 25 faiz payını (31 dekabr 2022-ci il: 25 faiz), 490 AZN (288 milyon ABŞ dolları) məbləğində təxmin etmişdir (31 dekabr 2022-ci il: 806 AZN (474 milyon ABŞ dolları)).

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

**22. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)**

**Kapital öhdəlikləri (davamı)**

*SCA Kondensat üzrə ASR*

27 may 2022-ci il tarixində AQTŞ və Qrupun törəmə müəssisəsi AzŞD, sonuncunun Şahdəniz HPBS-də 4.35 faiz iştirak payına aid kondensat üzrə hüququn sonradan Ceyhan dəniz terminalında satış üçün AQTŞ-yə ötürülməsini nəzərdə tutan yeni Kondensatın Alqı-satqısı razılaşmasını imzalamışlar. Həmin hüquq digərləri ilə yanaşı AQTŞ-yə SCA Kondensat ASR əsasında Azərbaycan (Şahdəniz) Limitid-ə ödənilməli kondensatın satışından daxilolmaları SOCAR Qaz Təchizatı Müqaviləsi əsasında Qrup tərəfindən AQTŞ-yə ödənilməli məbləğlərlə əvəzləşdirmək hüququnu nəzərdə tutur. Azərbaycan (Şah Dəniz) Limitid Şah Dəniz HPBS-də payını CQD-yə satmışdır (Qrupun asılı müəssisəsi) (Qeyd 17).

**Azərbaycan Qaz Təchizat Şirkətində ("AQTŞ") iştirak payına aid olan öhdəliklər**

Qrupun AQTŞ-də birbaşa iştirak payı 20 faiz, dolayı payı isə asılı müəssisə vasitəsilə 8.24 faiz təşkil edir. Eyni zamanda, Qrupun CQBK layihəsində və ŞD HPBS-də 10.30 faiz dolayı payı (asılı müəssisə vasitəsilə) vardır. AQTŞ ilə bağlanmış müqavilələrə əsasən, Qrupun AQTŞ-nin fəaliyyəti ilə bağlı aşağıdakı öhdəliklərdə payı vardır.

*BOTAŞ Rollover qaz satışlarına dair razılaşmalar ("QSR")*

30 sentyabr 2021-ci il tarixində AQTŞ və BOTAŞ, BOTAŞ ASR 1-in (birinci il 0.64 milyard müqavilə üzrə kub metr (mmkm), ikinci il 2.55 mmkm, 2024-cü ilin sonuna qədər sabitləşmə dövründə 3.7 mmkm) müddətinin başa çatmasından sonra müqavilə ilə əhatə olunmayan müəyyən həcmdə qazın Gürcüstan-Türkiyə sərhədində AQTŞ tərəfindən BOTAŞ-a satılmasına dair yeni qaz alqı-satqısı müqaviləsini imzalamışdır.

*BOTAŞ ASR 2*

25 oktyabr 2011-ci il tarixində Qrup və BOTAŞ Qrup tərəfindən BOTAŞ-a müəyyən həcmdə (birinci il 2 mmkm, ikinci il 4 mmkm, sabitləşmə dövründə 6 mmkm) Şah dəniz Mərhələ 2 Qazının satılması ilə əlaqədar BOTAŞ ASR 2 imzalamışdır. 2012-ci ilin dekabr ayında Qrup alqı-satqı razılaşmasının BORAS ASR 2 üzrə hüquq və öhdəliklərini AQTŞ-yə ötürmüşdür. BOTAŞ ASR 2 əsasında başlanğıc tarixi 30 iyun 2018-ci il olmuşdur.

*BOTAŞ-ın BTC yanacaq qazına dair müqaviləsi (BIL QSR)*

BOTAŞ ilə 25 oktyabr 2011-ci il tarixli "Təbii qazın alqı-satqısı haqqında müqavilə"yə ("BIL QSR") əsasən, AQTŞ hər il 0.15 mmkm qazı müqavilədə müəyyən olunmuş düstur əsasında hesablanmış qiymətlə təmin etmək öhdəliyini daşıyır.

*OptionCo ilə alqı-satqı razılaşması*

Option-Co ilə imzalanmış 27 fevral 2003-cü il tarixli Təbii Qazın Alqı-Satqısına dair razılaşmaya ("Back to Back Georgian Option Gas SPA") əsasən, AQTŞ 1 oktyabr 2022-ci il tarixində başlayan və 30 sentyabr 2023-cü il tarixində başa çatan müqavilə ili ərzində 0.83 milyard standart kub metr (mkm) həcmində qazın çatdırılması öhdəliyini daşıyır. Daha sonra, 1 oktyabrda başlayan müqavilə ili ərzində AQTŞ bu müqavilədə müəyyən edilmiş düstur əsasında hesablanmış qiymətlə əvvəlki təqvim ilində Cənubi Qafqaz boru kəməri (CQBK) vasitəsilə Gürcüstandan Türkiyəyə nəql edilmiş həcmin maksimum 5 faizi həcmində tədarüklər etməlidir.

*Gürcüstanda GNQK ilə əlavə qaz alqı-satqısı razılaşması*

Gürcüstan Neft və Qaz Korporasiyası ("GNQK") və Gürcüstan hökuməti ilə 30 oktyabr 2003-cü ildə imzalanmış əlavə qaz alqı-satqısı razılaşmasına əsasən, AQTŞ 2023-cü ildən 2026-cı ilin sonunadək hər il müqavilədə müəyyən edilmiş düstur əsasında hesablanmış ildə 0.5 mkm qaz tədarük etməlidir.

## 22. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### AQTŞ-də iştirak payına aid olan öhdəliklər

*Avropa İttifaqı (Aİ) ilə Şahdəniz layihəsinin 2-ci Mərhələsi üzrə uzunmüddətli qaz satışları haqqında müqavilələr (QSM)*

2013-cü ilin sentyabr ayında Qrup Aİ-nin alıcıları ilə (cari alıcılar: DEPA, Bulgargaz Shell, Uniper, Axpo, ENGIE, EDİSON, Enel, Hera) Aİ QSM-lər imzalamış və 2013-cü ilin dekabr ayında QSM-lər Şah Dəniz HPBS-nin müddəti bitənədək AQTŞ-yə ötürülmüşdür (Şah Dəniz üzrə istehsal həcmi azaldığına görə Qrupa ötürmək şərti ilə).

DEPA, Uniper, Shell (1-ci müqavilə), Axpo (iki müqavilə) və Bulgargaz QSM-ləri üzrə başlanma tarixi 31 dekabr 2020-ci il, Hera, Enel və Edison üçün QSM-lər üzrə başlanma tarixi isə 2021-ci ildir. 2-ci müqavilə üçün ENGIE və Shell üzrə başlanma tarixi 1 iyun 2021-ci ildir (bu 2 QSM-lər üzrə sıfır çatdırılma ilə 12 aylıq istehsal həcminin artırılması dövrü təyin edilmişdir).

*Cənubi Qafqaz Boru Kəməri Şirkəti ilə nəqletmə razılaşması*

AQTŞ Cənubi Qafqaz Boru Kəməri Şirkəti (“CQBKŞ”) ilə 27 fevral 2003-cü il tarixli Qazın Nəql edilməsi haqqında Razılaşmanı (“QNR”) imzalamış (“CQBK QNR”), həmin Razılaşma Şahdəniz Mərhələ 2 həcmləri ilə əlaqədar əlavə nəqletmə xidmətlərini göstərmək məqsədilə 17 dekabr 2013-cü il tarixində qüvvəyə minən düzəlişlər edilməklə yeni redaksiyada təqdim edilmişdir. 1 oktyabr 2006-cı il (başlanğıc) tarixindən etibarən, AQTŞ CQBKŞ-yə bu müqaviləyə uyğun olaraq hesablanmış müəyyən tarifləri ödəməlidir. AQTŞ boru kəmərini doldurmaq və planlaşdırılmış istismar təzyiqini təmin etmək üçün CQBKŞ-ni tələb olunan təbii qazla və yanacaq qazı ilə təmənnasız təmin etməlidir. CQBK QNR, təbii qazın nəql edilib edilməməsindən asılı olmayaraq, QNR-nin müddətinin başa çatması və ya bitməsinədək hər müqavilə ili üçün AQTŞ-nin CQBKŞ-yə ödəməli olduğu Minimal Aylıq Ödənişi (“MAÖ”) nəzərdə tutur.

*Çərçivə müqaviləsi*

Uzunmüddətli QSM-lərin yenilənməsinə və 2036-cı ildən sonra QNR həcmini AQTŞ-dən SOCAR-a ötürülməsinə aid olan yekun çərçivə müqaviləsi 19 oktyabr 2015-ci il tarixində imzalanmış və sonradan 28 sentyabr 2018-ci ildə ona düzəliş və əlavələr edilmişdir.

*Transanadolu Boru Kəməri qaz nəqletmə razılaşması (TANAP QNR)*

AQTŞ illik ehtiyat tutumu müqavilədə müəyyən edilməklə TANAP QNR-ni imzalamışdır. QNR üzrə başlanma tarixi 1 iyul 2020-ci il olmuşdur. Təbii qazın fiziki kommersiya çatdırmaları 31 dekabr 2020-ci il tarixində başlamışdır.

*Trans Adriatik Boru Kəməri qaz nəqletmə razılaşmaları (TABK QNR)*

AQTŞ və Qrup illik ehtiyat tutumu müqavilədə müəyyən edilməklə TABK QNR-ni imzalamışlar. Əməliyyatların faktiki başlanma tarixi 15 noyabr 2020-ci il olmuşdur. Təbii qazın fiziki kommersiya çatdırmaları 31 dekabr 2020-ci il tarixində başlamışdır.

*Societa Nazionale Metanodotti QNR (SNAM QNR)*

AQTŞ SNAM QNR-nin tərəfidir, illik ehtiyat həcmi müqavilədə müəyyən edildiyi kimidir. Başlanğıc tarixi (habelə təbii qazın fiziki kommersiya çatdırmaları) 31 dekabr 2020-ci il olmuşdur.

*BTC ASR*

AQTŞ, BTC ilə imzalanmış 30 noyabr 2007-ci il tarixli (“BTC ASR”) Yanacaq Qazın Alqı-Satqısı Razılaşmasına əsasən müqavilədə müəyyən edilmiş düstur əsasında hesablanmış qiymətlə illik tədarükləri azaltmaq (hər iki tərəfin öhdəliyi) hüququnu nəzərə alaraq 2023-cü ildə və müqaviləyə xitamın verilənədək sonrakı illərdə 0.15 mkm həcmində qazı tədarük etmək öhdəliyini daşıyır.

## 22. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### AQTŞ-də iştirak payına aid olan öhdəliklər (davamı)

*TAP Əməliyyat Qaz satışları Razılaşması*

TAP Əməliyyat Qaz satışları Razılaşmasına (“TAP ƏQSR”) uyğun olaraq AQTŞ 1 oktyabr 2023-cü ilədək TAP nəqliyyat sisteminin əməliyyatları üçün tələb olunan 2,000,000 MWh qaz həcmlərini çatdırmalıdır.

*Azəri ASR*

AQTŞ və Qrup arasında 27 fevral 2003-cü il tarixində imzalanmış Qaz alqı-satqısına dair razılaşmaya (“Azəri ASR”) əsasən, 2023-cü ildə və sonrakı dövrlərdə AQTŞ bu müqavilədə müəyyən edilmiş düstur əsasında hesablanmış qiymətlə minimum təxminən 1.5 mkm qaz tədarük etmək öhdəliyini daşıyırdı.

*Azərbaycan Rollover QSR*

16 aprel 2021-ci il tarixində AQTŞ və Qrup arasında yeni Qaz Alqı-Satqısı Razılaşması bağlanmışdır. Həmin razılaşma müqavilədə müəyyən edilmiş düstur əsasında hesablanmış qiymətlə Şahdəniz qazının müəyyən həcmlərinin (2022-ci ildə 3.8 mmkm, bütün digər tədarük illərində isə 3.0 mmkm) AQTŞ tərəfindən satılması və Qrup tərəfindən alınmasını əhatə edir.

*SOCAR ASR və SOCAR Rollover QSR-nin SOCAR-dan Azərkontrakta ötürülməsi*

Azərbaycan Hökuməti Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmiş, səhmləri 100 faiz dövlətə məxsus Azərbaycan Respublikasının Dövlət Kontrakt Korporasiyası “Azərkontrakt” Açıq Səhmdar Cəmiyyətini (“Azərkontrakt”) Nazirlər Kabinetinin 28 dekabr 2020-ci il tarixli, 513 saylı Qərarına uyğun olaraq yerli bazarda təbii qazın alqı-satqısı ilə məşğul olan müəssisə təyin etmişdir. Hökumətin müvafiq tapşırıqlarını icra etmək və Nazirlər Kabinetinin qərarının tələblərini yerinə yetirmək üçün Qrup, 11 iyun 2021-ci il tarixindən etibarən Azəri ASR və Azərbaycan Rollover QSR üzrə bütün hüquq və öhdəliklərini “Azərkontrakt”a ötürmüşdür.

*SOCAR Kondensat ASR*

AQTŞ və Qrup 27 fevral 2003-cü il tarixli Kondensatın Alqı-Satqısı Razılaşmasının tərəfləridir. Kondensat üzrə ASR-yə xitam vermək üçün tərəflər 18 yanvar 2008-ci il tarixli razılaşma (Xitamın verilməsinə dair razılaşma) imzaladılar. 16 aprel 2021-ci il tarixində AQTŞ və Qrup Xitamın verilməsinə dair razılaşmanı ləğv edərək kondensat üzrə ASR-yə əlavə imzaladılar. Həmin əlavədə Qrupun Şah Dəniz kondensatında payı üzrə hüququn sonradan Ceyhan dəniz terminalında satış üçün AQTŞ-yə ötürülməsinə icazə verilmiş və digər hüquqlarla yanaşı, Kondensat üzrə ASR əsasında Qrupa ödənilməli kondensatın satışlarından daxilolmaların Azərbaycan Rollover QSR, Azəri ASR və SOCAR Qaz təchizatı razılaşması əsasında Qrup tərəfindən AQTŞ-yə ödənilməli məbləğlərlə əvəzləşdirməsi hüququ nəzərdə tutulmuşdur. Həmin tarixdə AQTŞ SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsini Kondensat ASR əsasında Qrupdan alınmış kondensatın AQTŞ-nin adından bazara çıxarılması və satılması üçün AQTŞ-nin agenti təyin etmişdir.

*CQD ilə Təxirə salınmış alqı-satqı razılaşması*

CQD Upstream MMC və CQD Midstream MMC ilə bağlanan Təxirə Salınmış Alqı-Satqı razılaşmasına (“TSASR”) əsasən, Qrup 2023-cü ilin martında Şah Dəniz HPBS, AQTŞ və CQBK-dəki bütün iştirak paylarının satılmasına, satışdan əvvəl aşağıdakı şərtlərin yerinə yetirilməsi şərtilə, razılaşmışdır:

- Avrobond müqavilələrinə əsasən SOCAR tərəfindən veksellərin tam və şərtsiz ödənilməsi və digər öhdəliklərin yerinə yetirilməsi; və
- Müqavilə şərtlərinə əsasən ödəniş məbləğinin tam həcmdə ödənilməsinin təsdiq edilməsi.

2023-cü ilin martında Qrup yuxarıdakı şərtlərə əməl etmiş və satışlar həyata keçirilmişdir. 30 iyun 2023-cü il tarixinə Qrupun bununla bağlı əlavə öhdəlikləri olmamışdır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 22. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

**AQTŞ-də iştirak payına aid olan öhdəliklər (davamı)**

*“Azəriqaz” İstehsalat Birliyinin (“Azəriqaz” İB) öhdəliyi*

Azərbaycan Respublikasının Bakı şəhəri və ətraf rayonları və Respublikanın regionlarının sosial-iqtisadi inkişafına yönəldilmiş ölkə Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 saylı Sərəncamına uyğun olaraq, Azəriqaz İB sözügedən ərazilərin qazlaşdırılması imkanlarının təkmilləşdirilməsi ilə bağlı müəyyən öhdəliklər daşıyır. 2014-2018 illəri əhatə edən birinci qazlaşdırma proqramını tamamladıqdan sonra, Qrup qazlaşdırma prosesini yeni “Azərbaycan Respublikasının regionlarının 2019 - 2023-cü illər üçün sosial-iqtisadi inkişafı dövlət proqramı” çərçivəsində davam etdirir. 30 iyun 2023-cü il tarixinə ölkədə qazlaşdırma 96.34 faiz tamamlanmışdır (31 dekabr 2022-ci il: 96.29 faiz). Rəhbərlik hesab edir ki, ölkədə qalan qazlaşdırma işləri ilə bağlı xərclərin maliyyələşdirilməsi Dövlət tərəfindən kapitala yatırımlar vasitəsilə davam etdiriləcək.

**Sair öhdəliklər**

*Neftin daşınması üzrə öhdəliklər*

1 avqust 2002-ci il tarixində Qrup və AÇG HPBS-nin sair iştirakçıları (“İxracatçılar Qrupu”) BTC Co şirkəti ilə AÇG yatağında Məhsulların Nəqli haqqında Müqavilə (“AÇG MN”) bağlamışdır və 3 fevral 2004-cü il tarixində bu Müqaviləyə əlavələr edilmişdir. Bu Müqaviləyə əsasən, İxracatçılar Qrupu hər bir iştirakçı tərəfindən Qərb İxrac Marşrutu ilə göndərilən hər hansı məhsul istisna olmaqla, AÇG yatağından bütün xam neftin BTC neft boru kəməri vasitəsilə daşınması üzrə öhdəlik götürmüşdür. Qrup BTC Co tam istehsal həcmi ilə işləyənədək xam neftin dəmir yolu vasitəsilə daşınmamasına razılıq vermişdir. AÇG MN-yə uyğun olaraq Qrup BTC-nin istehsal həcminin kifayət qədər olduğu halda, sair daşınma imkanlarından istifadə edilməməsinə dair razılıq vermişdir.

BTC neft boru kəməri 2006-cı ilin may ayında istismara verilmişdir. Gündəlik istehsal həcmi 1,200,000 bareldən artıq olan BTC neft boru kəməri İxracatçılar Qrupunun əsas ixrac marşrutu kimi istifadə edilir. Məhsulların Nəqli haqqında Müqaviləyə uyğun olaraq, İxracatçılar Qrupu, Qrupun Nümayəndəsi, BTC-nin kreditorları və təminat üzrə zamini, eləcə də AÇG İxracatçılar Qrupunun müəyyən iştirakçılarının kreditorları və təminat üzrə zamini BTC tarifinin ödənişini neftin satışından gəlirlər üzrə birinci dərəcəli ödəniş olmasını təsdiqləmişlər.

*SOCAR Energy Ukraynanın öhdəliyi*

*Vergi qanunvericiliyi*

Qrup rəhbərliyin ən yaxşı təxminlərinə əsaslanaraq hesablanması tələb olunmayan mümkün vergi və hüquqi hadisələri üzrə ehtiyatları müəyyən etmişdir. Bu cür mümkün hadisələr baş verdiyi halda Qrupdan əlavə vergi və digər tutumların ödənilməsi tələb oluna bilər. 30 iyun 2023-cü il tarixinə rəhbərlik bu cür mümkün hadisələrin 11 AZN-dən (237 milyon UAH) çox olmayacağını təxmin edir.

*STAR Emal zavoduna aid xam neft təchizatı haqqında müqavilə əsasında öhdəlik*

*Xam neft təchizatı*

29 may 2014-cü il tarixində SOCAR və STAR Emal zavodu, STAR Emal zavoduna xam neftin satışı və çatdırılması haqqında Xam neftin Təchizatı haqqında müqavilə imzalamışlar. Müqaviləyə uyğun olaraq, SOCAR, müqavilənin başlanğıcından etibarən STAR Emal zavodunun xammal tələbini təmin etmək öhdəliyini daşıyır. Təchizat çatışmazlığı halında, SOCAR STAR Emal zavodu tərəfindən əsaslı olaraq çəkilmiş əlavə xərcləri ödəməlidir. Xam neft təchizatının kəsilməsi STAR-a əməliyyat və ya iqtisadi təsir göstərərsə, bu cür pul vəsaitlərinin xaric olunması ehtimalı yarana bilər.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan manatı ilə təqdim edilir)*

## 22. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### Sair öhdəliklər (davamı)

*Məhsulların alınması və ehtiyat məhsullarının alınması*

SOCAR-ın STAR neft emalı zavodunda istehsal olunan nafta və qarışıq ksilenləri bazar qiymətləri ilə almaq öhdəliyi mövcuddur. Sair neft məhsulları isə Türkiyə bazarında STAR neft emalı zavodu tərəfindən satılmalıdır. STAR neft emalı zavodu həmin məhsulları Türkiyə bazarında sata bilmədikdə, SOCAR həmin məhsulları satın alaraq Türkiyə və ya beynəlxalq bazarlarda təkrar satmalıdır. Həmin məhsullar üçün SOCAR-ın STAR Neft Emalı Zavoduna ödəyəcəyi məbləğlər bazar qiymətləri əsasında müəyyən ediləcək. Bundan əlavə, SOCAR çatışmayan məhsulların alınmamış həcminin tam qiymətinə tələb olunan həcmlərin qəbul edilməməsinə görə cərimələnmir. Əksinə, SOCAR tərəfindən ödənilməli zərərlər SOCAR-ın çatışmayan məhsulları qəbul etməməsi nəticəsində STAR Neft Emalı Zavodunun itkiləri ilə məhdudlaşır.

*Azərbaycan Respublikasında qaz satışları*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 dekabr 2020-ci il tarixli 513 nömrəli qərarına əsasən təsdiq olunmuş Dövlət Yanacaq-Enerji Balansına uyğun olaraq ixrac öhdəlikləri yerinə yetirildikdən sonra “Azneft” İB və HPBS-lər (“SOCAR Qaz İstehsalçıları”) tərəfindən hasil edilən təbii qazın ümumi həcmləri dövlətə məxsus “Azərkontrakt” ASC-yə satılmalıdır.

## 23. Hesabat tarixindən sonra baş vermiş hadisələr

### “Abşeron” qaz-kondensat yatağındakı payın satışı

Hesabat dövründən sonra SOCAR, TotalEnergies və Abu Dabi Milli Neft Şirkəti (ADNOC) Abşeron qaz-kondensat yatağındakı payın 30 faizinin satışına dair müqavilə imzaladılar. Bu əməliyyat başa çatdıqdan sonra ADNOC 30 faiz pay əldə edəcək, SOCAR və TotalEnergies-in hər birinin payları isə 50 faizdən 35 faizədək azalacaq.

### Refinery Holding A.Ş.-dəki payın 20 faizinin satışı (“RHAŞ” – STEAŞ-nin 100 faiz törəmə müəssisəsi)

Hesabat dövründən sonra STEAŞ RHAŞ-dəki 20 faiz payını Petkim-ə (STEAŞ-nin 51 faiz törəmə müəssisəsi) 816 AZN (480 milyon ABŞ dolları) müqabilində satmışdır.

### RHAŞ-nin nizamnamə kapitalında artım

2023-cü ilin ikinci yarısında Qrup RHAŞ-nin nizamnamə kapitalını 741 AZN (436 milyon ABŞ dolları) məbləğində artırmışdır.

### Türkiyədə mənfəət vergisi dərəcəsinin dəyişməsi

Hesabat dövründən sonra Türkiyədə mənfəət vergisi dərəcəsi 20 faizdən 25 faizədək artırılmışdır. Yeni dərəcə 2023-cü ilin iyul ayından etibarən qüvvəyə minib.

### Borc öhdəlikləri

Hesabat dövründən sonra Qrup yeni uzunmüddətli və qısamüddətli kreditlər əldə etmiş və müvafiq olaraq 7,832 AZN və 4,663 AZN məbləğində qalıq borclarını ödəmişdir.